Təbrik edirik!

# MÜKAFAT UĞURA SƏSLƏYİR



## Çingiz Əlioğlu

Çingiz Əli oğlu Əliyev 1944-cü ildə Füzulidə anadan olub. Azərabycan Neft və Kimya İnstitutunun məzunudur. "Gənclik" nəşriyyatında redaktor, böyük redaktor, redaksiya müdiri, Azərbaycan Dövət Nəşriyyatında baş redaktor, Mətbuat və İnformasiya Nazirliyində nəşriyyatlar idarəsinin rəisi vəzifələrində çalışmışdır. Hazırda Mədəniyyət Nazirliyi nəşriyyat şöbəsinin müdiridir.

50-dək kitabın müəllifidir. Əsərləri keçmiş SSRİ xalqlarının və bir çox Avropa xalqlarının dilinə tərcümə edilmişdir. Azərbyacan yazıçı və şairlərini dəfələrlə müxtəlif festival, konfrans və müşavirələrdə təmsil etmişdir. Ümumittifaq poeziya müsabiqəsinin qalibi, neçə-neçə mükafatlar laureatıdır.

Yazıçılar birliyi poeziya bölməsinin rəhbəri, əməkdar mədəniyyət işçisidir.



## Yaşar Vəliyev

Yaşar Hidayət oğlu Vəliyev 1951-ci ildə Borçalıda anadan olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsinin məzunudur. Müxtəlif məsul vəzifələrdə çalışıb. Neçə-neçə mətbuat orqanına ("Mübarizə", "Həftə", "Rezonans" qəzetləri və "Zəka" jurnalı) redaktor və baş redaktor müavini kimi rəhbərlik edib. 2000-ci ilin fevralından "Mədəni-maarif" jurnalının baş redaktorudur.

Y. Vəliyev 1500-dək məqalənin, 300-dən artıq karikaturanın və 8 kitabın müəllifidir. "Qızıl qələm", "H.Zərdabi", "C.Məmmədquluzadə" mükafatlarının laureatı, bir sıra yaradıcılıq musabiqələrinin qalibidir.

Azərbaycan Yazıçılar, Jurnalistlər və Rəssamlar birliklərinin üzvüdür...